# AKADEMİKİN YETMİŞİNCİ PAYIZI



*VAQİF YUSİFLİ,*
*filologiya elmləri doktoru*

**Miladdan qabaq, IV əsrdə Afina şəhəri yaxınlığındakı bağların birində yunan filosofu Platon bir məktəb təsis edir və onun adını AKADEMİYA qoyur. Sonralar bu ad öz ilkin mənasını daha da genişləndirir, elm və sənətləri inkişaf etdirmək məqsədilə yaradılan müəssisələr, yüksək ali təhsil verən məktəblər də Akademiya adlanırır. Bir sözlə, indiki anlamda Akademiya elm və sənət adamlarınının yüksək səviyyəsini, ali dərəcəsini, idrak və zəka poliqonunu təşkil edən birlikdir. Yəni Akademiyaya seçilən insanlar adi adamlar deyillər, elmin ən yüksək zirvəsini fəth edən insanlardır. Mətləbi çox uzatmıram və yaxından tanıdığım, qırx ildən artıq dostluq etdiyim akademik İsa Həbbəylinin həyatı və elmi yaradıcılığı timsalında Akademik Obrazı ilə sizi tanış etmək istəyirəm.**

*İsa Həbibbəyli*

1949-cu il oktyabın 16-da Naxçıvanın Şərur rayonunun Danyeri (keçmiş Danzik) kəndində, müəllim ailəsində dünyaya gəlib. Orta məktəbi bitirəndən sonra APİ-nin Naxçıvan filialının Dil və Ədəbiyyat fakültəsinə daxil olub, institutu fərqlənmə diplomu ilə bitirib. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedoqoji İnstitutunda, Azərbaycan ədəbiyyatı kafedrasında müəllim, baş müəllim, dosent kimi çalışıb. İnstitutda tələbə elmi cəmiyyətinin səri olub. Onun keçmiş tələbələri İsa müəllimi hörmətlə xatırlayırlar.İsa müəllim tələbələrinə Azərbaycan ədəbiyyatının zəngin tarixi keçmişindən, müasir ədəbiyyatdan konspektsiz mühazirələr oxuyur, klassikləri, XX əsrin ustad sənətkarlarını sevdirməyi bacaran müəllim kimi tanınırdı. Naxçıvan Pedoqoji İnstitutu Universitetə çevrildi və İ.Həbibbəyli ilk prorektoru seçildi, 1996-cı ildən isə rektor təyin edildi.Mən bir neçə dəfə o Universitetdə yaranan böyük dəyişikliklərin şahidi oldum. Universitetin ərazisində becərilən qızılgüllərdən tutmuş, auditoriyaların ideal səliqə - səhmanına qədər hər şey parlaq idi. İsa müəllimin təkidilə bir neçə dərsdə də oturdum, müəllimlərin mühazirələrini dinlədim, tələbələrin hazırlığı mənə xoş gəldi. Universitetin elektron kitabxanasına baş çəkdim və özümü sanki Avropa tipli bir Universitetdə hiss etdim. Əlbəttə, bu dediklərim sadəcə tərif deyil, həqiqətdir. 2013-cü ildə İsa Həbibbəyli Azərbaycan MEA-nın vitse prezidenti seçildi, eyni zamanda Nizami adına Ədəbiyyat İnstitutunun direktorluğu da ona tapşırıldı.

Bu, akademik İsa Həbibbəylinin qısa bioqrafiyası. Amma onun əsl elmi tərcümeyihalı çox zəngindir. İsa Həbibbəyli müasir Azərbaycan ədəbiyyatşünaslığının ən görkəmli simalarından biridir. Onun həm Azərbaycanda, həm də xarici .lkələrdə, xüsusilə, İranda və Türkiyədə irili-xırdalı yetmişdən artıq kitabı çapdan çıxıb."Romantik lirikanın imkanları (1984) İsa Həbibbəylinin namizədlik dissertasiyasının əsasında hazırlanmışdı və bu kitabdan başlayaraq onun XX əsrin əvvəlləri Azərbaycan klassikləri haqqında silsilə məqsələləri və monoqrafiyalı nəşr edilir. Bu sırada dahi ədibimiz Cəlil Məmmədquluzadə yaradıcılığı xüsusi yer tutur. Əlbəttə, Cəlil Məmmədquluzadənin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslarının daim diqqət mərkəzində olub. Lakin onun həyatı və mühiti ilə bağlı çox həqiqətlər gizlin qalmışdı.İsa Həbibbəyli ilk dəfə olaraq Mirzə Cəlilin Naxçıvanda yaşadığı, müəllimlik etdiyi illəri, Qori müəllimlər seminariyasında təhsil aldığı illərdə bir maarifçi kimi formalaşdığını və həmin seminariyada təhsil alan digər azərbaycanlı tələbələrin həyatını elmi ictimaiyyətə təqdim etdi. "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası" (1997) İsa Həbibbəylini bir alim kimi şöhrətləndirdi. Amma Mirzə Cəlil sevgisi onun həyatından elə bununla çəkilib getdimi? Yox! "Cəlil Məmmədqulzadənin həyat və yaradıcılığının əsas tarixləri (avtobioqrafik göstəricilər)" (1986), "Cəlil Məmmədquluzadə" (1987), "C.Məmmədquluzadə. Pyeslər (tərtib, müqəddimə və şərhlərlə)", "Seçkin Azərbaycan yazarı Cəlil Məmmədquluzadə" (Ərzrum, 1994), "Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri (tərtib, ön söz və şərhlərlə)", "Mirzə Cəlil və Məmmədquluzadələr. Məktublaşma (toplama, tərib və sözardı)" (2003) və s. Və nəhayət, İ.Həbibbəyli sübut elədi ki, C.Məmmədquluzadə 1866-cı ildə deyil, 1869-cu ildə təvəllüd tapıb və bu da rəsmən qəbul edildi.

İsa Həbibbəylinin yaradıcılığında ayrı-ayrı ədəbi şəxsiyyətlərə həsr olunmuş məqalələr və monoqrafiyalar xüsusi yer tutur.Mirzə Cəlilə sevgisindən başlanmış bu yol Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli. Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Hüseyn Cavid, M.Hadi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Sabir, A.Səhhət, Əliqulu Qəmküçar, M.T.Sidqi, F.B.Köçərli, Ə.Hüseynzadə, Şəhriyar, S.Vurğun, M.Cəlal, M.İbrahimov, B.Vahabzadə, İ.Səfərli, M.Araz, İsa Hüseynov, Elçin, Hüseyn İbrahimov, S.Rüstəmxanlı, Rəşad Məcidə davam edir. Özü də hər bir ədəbi şəxsiyyətə yanaşmada İ.Həbibbəyli təzə fikir, təzə söz deyir. Məsələn, "Mir Cəlal müəllim" portretində oxuyuruq: "Mir Cəlal Paşayev görkəmli yazıçı-alimdir. "Görkəmli" sözü onun yaradıcılığına hansı dərəcədə aiddirsə, alimliyini də o qədər, həmin səviyyədə təyin edə bilər. "Rəsul Rzanın sənət qüldrəti" məqaləsində: "Məhz Rəsul Rzanın böyük yaradıcı dühasının simasında sərbəst şeir Azərbaycan ədəbiyyatının həmişəlik ədəbi sərvətinə çevrilmişdir. Xalq şairi Rəsul Rza Azərbaycan sərbəst şeirin atasıdır". Hər bir sənətkara onun yaradıcılıq özünəməxsusluğu ilə yanaşır.

**Burada bir vacib məsələni də açıqlamalıyam. İsa Həbibbəyli həm nəzəriyyəçi, həm də ədəbiyyat tarixçisidir. Onun nəzəri fikirləri ayrı-ayrı məqalə və monoqrafiyaların səmtini, axarını müəyyənləşdirir. Vaxtilə qələmə aldığı "Ədəbiyyat nəzəriyyəsi" dərsliyində bunun əyani şahidi oluruq. Onun Azərbaycan romantizmi və realizmi ilə bağlı nəzəri fikirləri təkcə maraq doğurmur, həm də nəzəriyyəçi alimlərin köməyinə gəlir. Ədəbiyyat tarixçiliynə gəldikdə isə, İsa Həbibbəylinin indiyə qədər klassiklərdən və müasirlərdən, onların yaradıcılığından yazdığı məqalələri, monoqrafiyalrından ayrı-ayrı fəsilləri bir Ədəbiyyat tarixində cəm etmək olar.**

*Təzə-orijinal fikir söyləmək*

təkcə bədii ədəbiyyatda deyil, ədəbiyyatşünaslıqda da ən vacib şərtdir. İsa Həbibbəyli ədəbiyyatşünaslıqda hələ öz tam həllini tapmamış, hətta mübahisəli görünəq məsələlərə də bir aydınlıq gətirir, problemi elmi şəkildə həll etməyə girişir.Bu yazıda akademikin digər əsərləri barədə söz açmaq olar, amma təfsita varmaq istəmirəm. Axırıncı çapdan çıxan bir monoqrafiyası barədə qısaca söz açmaq istəyirə. Bir neçə gün əvvəl onun "Azərbaycan ədəbiyyatı. Dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyası ilə tanış oldum. Qeyd edim ki, ilk dəfə İsa Həbibbəyli tərəfindən hazırlanmış Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə konsepsiyası və müəyyənləşdirilmiş tqkişaf mərhələləri artıq bir sıra iclaslarda (Azərbaygan MEA Rəyasət heyətində, Ədəbiyyat institutunda, Beynəlxalq Türk Akademiyasında geniş müzakirə olunmuşdur. İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyasını on bölmədə təqdim edir. Mübahisə yeri qalmır. Oxuculara akademikin dövrləşdirmə və inkişaf mərhələləri ilə bağlı fikirlərini burada xatırlatmaq yerinə düşər. 1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər. 2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc mərhələsi (VII-X əsrlər). 3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər). 4. Orta əsrlər Azərbaycan ədəbiyyatı. Anadilli Azərbaycan epoxası: Həsənoğludan Füzuliyədək (XIII-XVI əsrlər(. 5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII=-XVIII əsplər). 6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü. (XIX əsr).. 7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin 90-cı illərindən 1920-ci ilədək). 8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü. 9. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi (1960-1980-ci illər). 10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən). Əlbəttə, bu inkişaf mərhələlərinin hər biri ayrıca tədqiqat obyekti ola bilər və İ.Həbibbəylinin bu dövrləşdirmə konsepsiyası adını çəkdiyimiz əsərində mükəmməl şəkildə öz elmi təfəsirini tapır.



İsa Həbibbəyli 2013-cü ildən Ədəbiyyat İnstitutun da direktrudur. Onun gəlişiylə doğrudan da institutda bir canlanma yarandı. Bəziləri bunu institutun həyatında intibah kimi qiymətləndirirlər. Amma mən bunu İsa Həbibbəyliyə xas olan işgüzarlıq (əməldə və işdə), coşqun temperamet kimi səciyyələndirirəm.

Öncə dediyim kimi doğrudan da, İsa Həbibbəyli bu altı ildə institutda görünməmiş bir canlanma yaratdı. Ən sadə həqiqət budur ki, İsa müəllim bu instituta gələnə kimi hamını tanıyırdı, onların əsərlərini oxumuşdu, o, elmi səviyyəsindən asılı olmayaraq hər bir əməkdaşın mənəvi potensialını yaxşı bilirdi, kimin nəyə qadir olduğunu duyurdu, çalışırdı ki, gerçəkləşməmiş arzuları reallaşdıra bilsin.

O, institut müdafiə şurasının fəaliyyətini ön plana çəkdi, doktor olmağa mane olan əngəlləri aradan qaldırdı, elə ay olmazdı ki, namizədlik və doktorluq dissertasiyaları müdafiyə çıxarılmasın. İnstitutda elmi şöbələrin sayı da artırıldı, çünki elə mövzular, elə problemlər var idi ki, onları yalnız bir şöbə daxilində həll etmək olardı. Məsələn, Nizaminin adını daşıyan bir institutda dünya şöhrətli şairin yaradıcılıq irsi ilə daha mükəmməl şəkildə məşğul olan Nizamişünaslıq şöbəsi, ədəbi tənqidin tarixini, ayrı-ayrı tənqidçilərin yaradıcılıq yolunu, müasir ədəbi prosesi müntəzəm izləyən Ədəbi tənqid şöbəsi, Orta Asiya və Çin xalqlarının ədəbi irsini öyrənən şöbə və s. şöbələr yaradılması məqsədsiz deyildi.Hətta institutda yapon ədəbiyyatı ilə məşbul olan mütəxəssislər olması da Ədəbiyyat institutunun dünyaya çıxış yolunu müəyyənləşdirir. **2014-cü ildən başlayaraq hər il institutda ilin ədəbi yekunlarına həsr olunan elmi yaradıcılıq müşavirələrinin keçirilməsi də ədəbi-elmi ictimaiyyətdə böyük maraq doğurdu. Bu, heç də "köhnənin bərpası" deyildi, 60-70-ci illərdə elə bu institutda keçirilən müşavirələrin davamı olsa da, bir sıra yenilikləri ilə seçilirdi. Deyək ki, məruzələrin sayı çoxaldı, gənc alimlərin məruzəçi kimi çıxış etmələrinə imkan verildi. Müşavirələrdə təkcə institut əməkdaşları deyil, respublikada fəaliyyət göstərən digər alimlər də iştirak elədi, jurnalistlər dəvət olundu.** Müşavirə materialları hər il "Ədəbi proses" seriyasından olan toplularda öz əksini tapdı. İsa Həbibbəyli və institut əməkdaşlarından bir çoxu xarici ölkələrdə ezamiyyətdə oldular, Ədəbiyyat institutları arasında əməkdaşlıq körpüləri yarandı. Beynəlcalq elmi konfransların keçirilməsi və bu konfranslarda müxtəlif konseptual problemlərin müzakirə olunması artıq qanunauyğun prosesə çevrilib. İsa Həbibbəylinin institutda gəncliyə, onların yaradıcılıq potensialına güvənməsi haqqında ayrıcı söz açmaq olar. Elnarə Akimova, Maral Yaqubova, Aynurə Mustafayeva, Aygün Bağırlı, Nərmin Cahangirova, Aynur Xəlilova, Mehman Həsənov, Eşqanə Babayeva kimi gənc alimlər institutun öncülləri sırasındadırlar.

İsa müəllim onlara hətta vəzifə də verir-Aygün Bağırlı direktor müavini, Mehman Həsənov elmi katib, Elnarə Akimova şöbə müdiri və müdafiə şurasının üzvüdür.. Ən əsas budur ki, İsa müəllim onlara inanır, bu inam isə həmin cavanların istedadı və işgüzarlığı ilə bağlıdır.

Əlbəttə, mən burada təkcə akademik İsa Həbibbəylinin deyil, həm də institutun fəal əməkdaşlarının da rolunu qeyd etmək istərdim. Ancaq bütün bu işlərin reallaşmasının dirijoru İsa müəllimdir.

*Onun gəlişindən sonra*

yeddi cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin nəşrləri işi sürətləndi (artıq 5-ci cild də hazır vəziyyətdədir). Amma bununla kifayətlənmək olmazdı. Onun təşəbbüsü ildə indii on cildlik "Azərbaycan ədəbiyyatı tarixi" hazırlanır (I cild artıq çapdan çıxıb). İki cildlik "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı"nən nəşri də elmi ictimaiyyətdə yaxşı qarşılandı. Bu ikicildliyin hazırlanmasında institutun əksər əməkdaşları müəllif kimi iştirak etdilər.

"Zəhmətkeş" sözünü çox zaman sovet dövrünün artıq arxaikləşən bir ifadəsi hesab edirlər. Ancaq bu söz İsa Həbibbəylinin xasiyyətini, xarakterini, bir alim və rəhbər kimi portretini səciyyələndirir.

Təsəvvür edin, o, vitse -prezidentdir və bir neçə elmi institutun fəaliyyətinə cavabdehdir. İnstitut direktorudur və burada görülən işlər də çox vaxt aparır. Və İsa müəllim demək olar ki, hər həftə "525-ci qəzet"də, "Ədəbiyyat qəzeti"ndə məqalələrlə çıxış edir, institutda hazırlanan elmi məcmuələrdə iri həcmli məqalələr də onunkudur, hələ namizədlik və doktorluq dissertasiyalarını da oxuyur, redaktə eləyir. Yetmiş yaşlı bir alimin bütün bunları necə şövqlə reallaşdırdığını düşünəndə heyrətlənirsən.

İsa Həbibbəylinin yetmiş yaşı tamam olur. O, bu yaşında gənclik illərində olduğundan da daha artıq yazır-yaradır. Onun çoxcəhətli elmi fəaliyyəti müasirləri tərəfindən yüksək qiymətləndirilib. Bir neçə misalla kifayətlənəcəyəm. Xalq yazıçısı Elçin yazır:

"Cəlil Məmmədquluzadə yaradıcılığını və fəaliyyətini təhlil və tədqiq edərkən də onu başa düşməklə bərabər, onu hiss etmək də vacibdir və nə yaxşı ki, Azərbaycanda bu cür alimlər var. Və nə yaxşı ki, bu gün də bu cür alimlərimiz-Cəlil Məmmədquluzadəni başa düşən və Cəlil Məmmədquluzadəni hiss edən cəlilşünaslarımız var və onların indii ən fəalı və fədakarı İsa Həbibbəylidir".

Professor Qəzənfər Paşayev isə belə deyir:

"Son onillikdə ədəbiyyatşünaslıq elmimizdə, bu elmin görkəmli nümayəndələrindən söz düşəndə göz önünə ilk gələnlərdən biri də akademik İsa Həbibbəyli olur" Onun müəllimi olmuş mərhum professor Yavuz Aziundlunu dinləyək:

**"Artıq İsa Həbibbəyli Azərbaycandan kənarda da ciddi bir tədqiatçı kimi tanınır. O, Ankarada, Bağdadda, Tehranda, Marağada, Qazi-Maqosada keçirilən beynəlxalq simpoziumlarda məruzə ilə çıxış etmişdir. Onun Atatürk Kultur, Dil və Tarix Yüksək Qurum Başqanlığında etdiyi məruzə Türkiyə televiziyasının TRT-1 proqramı ilə yayımlanmışdır". Belə misalların sayını istənilən qədər artırmaq olar. Nəhayət, İsa Həbbəyli haqqında qələmə aldığım bu yazını vaxtilə ona həsr etdiyim bir məqalənin, on il əvvəl yazılsa da, sonuncu cümləlri ilə bitirmək istəyirəm: "Mən İsa Həbibbəyli haqqında bu kiçik yazını haçansa (ömür vəfa eləsə) "Bu dünyada İsa Həbibbəyli var" adlanacaq o kitabım üçün bir balaca məşq sayıram. Ürəyim doludur, amma hələlik bu qədər Nə yaxşı ki, dünyada İsa Həbibbəyli var".**